Noyabr / 2020

# STM

## "Azərbaycan Respublikasının Dövlət Bayrağına münasibət ictimai rəydə"

## HESABAT



SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

Noyabr 2020

# “Azərbaycan Respublikasının Dövlət Bayrağına münasibət ictimai rəydə”

**HESABAT**

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti

Bakı - 2020

**Redaktor:**
Aqşin Məmmədov,
*filologiya üzrə fəlsəfə doktoru*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT

İCMAL....4

GİRİŞ....5

I. Sorğunun metodologiyası....6

II. Seçmənin sosial-demoqrafik tərkibi....7

III. Sorğu nəticələrinin statistik və analitik təhlili....7

# İCMAL

● Seçmədəki respondentlərin 81.3%-i Dövlət bayrağını görəndə qürur hissi keçirir. Təxminən hər on nəfərdən biri (10.7%) qələbə, 14.8% isə sevinc hissi yaşayır.

● Respondentlərin böyük əksəriyyəti (86%) üçün Dövlət bayrağı Qarabağda qələbənin, hər üç nəfərdən biri (35.7%) üçün müstəqilliyin, seçmənin digər üçdə biri (31.5%) üçün isə dövlətçiliyin rəmzidir. Cəmi 25.5% bayrağı milli birliyin rəmzi kimi görür.

● İşğaldan azad olunan torpaqlarda bayrağın dalğalandığını görmək (90.1%) və Ali Baş Komandanın qələbə xəbərlərini verməsi fonunda görmək (90%) respondentlərin mütləq əksəriyyətinin Dövlət bayrağıyla qürur duymasının əsas səbəbidir.

● Seçmənin yarısı (56.3%) isə bayrağımız başqa ölkələrin bayraqları ilə yanaşı dalğalananda qürur hissi duyur. Hər üç nəfərdən biri (35.7%) isə bayrağımızı beynəlxalq idman yarışlarında və şəhərin/rayonun müxtəlif yerlərində görəndə (32.3%) qürur hissi keçirir.

● Respondentlərin mütləq əksəriyyəti (98.2%) müstəqil Azərbaycan Respublikasının mövcud Dövlət bayrağının quruluşu ilə tam razıdır və bu forma onları tam qane edir.

● 79.2% respondent Dövlət bayrağının rənglərini ardıcıllıqla sadalaya bilib. Belə ki, yaşlılarla müqayisədə Dövlət bayrağının rəngini düzgün ardıcıllıqla bilənlər gənclər arasında üstünlük təşkil edir.

● 55.2% respondent isə bayraq gününün qeyd edildiyi tarixi düzgün bilir. 44.8% respondent isə Dövlət Bayraq Gününün 9 noyabr tarixində keçirildiyini bilmir. Yaş amilinə gəlincə isə yaş artdıqca bayraq gününün qeyd edildiyi tarixi düzgün bilənlərin sayı azalır

● Respondentlərin mütləq əksəriyyəti (97.7%) belə qənaətdədir ki, vətəndaşlarımız Dövlət bayrağımıza hörmətlə yanaşır.

● Dövlət bayrağının məişət əşyaları və geyimlərin üzərində əks olunmasına münasibət birmənalı deyil. Belə ki, seçmənin üçdə ikisi (66.6%) buna müxtəlif dərəcələrdə yaxşı baxır (38.5% "çox yaxşı", 28.1% "əsasən yaxşı").

● Hər beş respondentdən birinin (20.1%) Dövlət bayrağının məişət əşyaları və geyimlərin üzərində əks olunmasına münasibəti çox pisdir.

● Lakin Dövlət bayrağının müxtəlif binaların üzərində əks olunmasına ictimai münasibət əhəmiyyətli dərəcədə daha yaxşıdır (97.9%).

● Respondentlərin böyük əksəriyyəti (77.6%) hesab edir ki, II Qarabağ müharibəsi nəticəsində vətəndaşlar Dövlət bayrağını qələbənin rəmzi kimi qəbul etməyə başladılar.

● Sorğu müəyyən etdi ki, seçmənin yarısından çoxu (53.1%) Qarabağ müharibəsi başlayandan sonra bayraq alıb.

● Hər üç nəfərdən biri isə (35.2%) daha əvvəldən bayraq sahibi olduğundan, onu almağa ehtiyac duymayıb.

● Müəyyən qədər narahatedici məqam bundan ibarətdir ki, təxminən 6.8% respondent onun qiymətinin baha olması, yaxud satışda tapa bilməməsi ucbatından bayraq ala bilməyib.

● Belə ki, bayraqların qiymətinin dəyişdiyini müşahidə edən 41.9%-in əsaslı hissəsi (96.3%) artım olduğunu bildirib.

● Respondentlərin əsaslı hissəsi (95.1%) Türkiyə bayrağına, yarısı isə (47.9%) Pakistan bayrağına simpatiya duyur.

# GİRİŞ

Dövləti xarakterizə edən siyasi hakimiyyət, ərazi, iqtisadi potensial, silahlı qüvvələr, dini-fəlsəfi, eləcə də ideoloji elementlər sırasında dövlətçilik simvolları da müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının təqdimat vəsiqələrindən, millətin, dövlətin varlığını təsdiq edən bir nömrəli sənədlərindən biri onun suverenlik rəmzi - Dövlət bayrağıdır.

Siyasi, ideoloji, mənəvi baxımdan mövcudluğumuzu, müasir mədəni inkişafımızı və müstəqilliyimizi təcəssüm etdirən və ən əsası milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirən bayraq milli heysiyyət simvolu, müqəddəsliyin, istiqlaliyyətin səsidir, torpağın başlanğıcı və şəhidlərin müqəddəs andıdır.

Azərbaycan bayrağının ideoloji əsasının müəllifi, onu mənalandıran üç ümdə amilin ideoloqu görkəmli şəxsiyyət, dahi mütəfəkkir Əli bəy Hüseynzadədir. Azərbaycanın Dövlət bayrağının üç rəngi məhz Əli bəy Hüseynzadənin milli istiqlal ideologiyamızın təməl prinsiplərini təşkil edən "Türkçülük, müasirlik və islamçılıq" formulunun timsalıdır.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub.

17 noyabr 1990-cı ildə təcrübəli dövlət xadimi kimi sədrlik etdiyi Naxçıvan MSSR Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri götürüldü. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş bayrağın, gerbin və dövlət himninin bərpası ilə bağlı mühüm qərar qəbul olundu. Bu mənada, mavi rəngi ilə türkçülük ideyasına sadiqliyini, qırmızı rəngi ilə müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəngi ilə İslam sivilizasiyasına mənsubluğunu ifadə edən bayrağımız ilə Azərbaycanın müstəqilliyi, dövlətçilik tariximizin bütövlüyü və milli dövlət varisliyi təmin edilmiş oldu.

Ümummilli lider Heydər Əliyevin varlığımızı təsdiqləyən bayrağımızla bağlı milli mənafelərə əsaslanan ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyev Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq dövlətçilik ənənəsinə, varislik xəttinə sadiqlik ruhunu konkret addımları ilə cəmiyyətə daim aşılayıb.

Bu baxımdan "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, eləcə də 2004-cü il 8 iyun tarixli "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanun dövlətçiliyə sədaqətin, yüksək ehtiramın ifadəsidir.

Prezident İlham Əliyevin 2007-ci il noyabrın 17-də "Bakıda Dövlət Bayrağı Meydanının yaradılması" və 2009-cu il noyabrın 17-də hər il noyabr ayının 9-nun Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamlar Dövlət bayrağının dövlət rəmzləri sırasında tutduğu əhəmiyyətli yeri və rolunu, xalqımızın qədim tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunmasına, dünya ictimaiyyətinə təbliğ etmək naminə yürütdüyü uğurlu siyasətin və gələcək ümidlərin ifadəsidir.

**Tədqiqatın məqsədi.** Sosial Tədqiqatlar Mərkəzi tərəfindən keçirilən sorğunun məqsədi vətəndaşların Dövlət bayrağına münasibətini, Dövlət bayrağı haqqında məlumatlılığını, həmçinin, hazırda davam edən II Qarabağ müharibəsinin əhalinin bayrağa dair münasibətinə təsirini öyrənməkdir.

# I. TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

**Sorğunun əhatə dairəsi.** Sorğu çərçivəsində Bakı, Abşeron, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Aran və Gəncə-Qazax iqtisadi rayonlarını əhatə etməklə 384 respondentin rəyi öyrənilib.

384 respondent seçmənin reprezentativliyini təmin edir. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

**Respondent seçimi.** Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmə metodundan istifadə edilib. Birinci mərhələdə hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Növbəti mərhələdə hər yaşayış məntəqəsindən sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda təsadüfi qaydada stasionar telefon nömrəsi seçilib. Seçilmiş klasterlər üzrə telefon nömrələrinin olduğu baş məcmuda hər üçüncü nömrəyə zəng edilib. İmtina hallarında növbəti üçüncü nömrə ilə əlaqə saxlanılmağa çalışılıb.

**Tədqiqat metodu və sorğunun aparılma üsulu.** Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibəsi üsulundan istifadə olunub. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo proqramından istifadə edilib.

**Sahə işi.** Tədqiqat 2020-ci ilin 5-6 noyabr tarixlərində keçirilib. Telefon zəngləri saat 10:00-21:00 arasında keçirilmişdir. Sorğunun orta keçirilmə müddəti 5 dəqiqə 35 saniyə, standart sapması isə 2 dəqiqə 15 saniyədir.

**Etik prinsiplər.** Sorğu keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqda tam məlumat verilib. Həmçinin, respondentlər sorğuda iştirakın könüllü olması, sorğunu istənilən anda dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək, zəng olunan vaxt uyğun deyilsə, daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumatlandırılıblar.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

**Təlimat.** Sorğunun keçirilməsinə başlamazdan əvvəl intervüyerlər Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşları tərəfindən keçirilən təlimdə iştirak ediblər.

Təlimdə keçirilən sorğunun məqsədləri, onlara ünvanlanan suallar haqqında geniş izahatlar verilib. Təlim prosesində intervüyerlər tərəfindən test sorğusu da aparılıb.

Təlim zamanı intervüyerlərə onlara verilən nömrələrə zəng etmə qaydaları, respondentin seçilməsi üsulu barədə də məlumatlar verilib. Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazır olublar.

**Məlumatların işlənməsi və təhlili.** Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

**Qeyd:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**Prosesə nəzarət.** Keçirilən sorğuların keyfiyyətinə nəzarət etmək üçün hər intervüyerin gün ərzində keçirdiyi sorğularda iştirak edən, təsadüfi qaydada seçilən beş respondentlə geri əlaqə saxlanılaraq sorğunun həqiqətən keçirilib-keçirilməməsi yoxlanılıb. Bundan əlavə hər bir sorğuya və sorğuda olan bütün suallara ayrı-ayrılıqda sərf olunan vaxtın müddəti şübhəli olduğu təqdirdə həmin respondentlə geri əlaqə saxlanılıb.

**Sorğunun keçirildiyi iqtisadi rayonlar (%-lə)**



# II. SEÇMƏNİN SOSİAL-DEMOQRAFİK TƏRKİBİ

**Demoqrafik göstəricilər**




# III. SORĞU NƏTİCƏLƏRİNİN STATİSTİK VƏ ANALİTİK TƏHLİLİ

## I. Dövlət bayrağına respondentlərin münasibəti

Seçmədəki respondentlərin 81.3%-i Dövlət bayrağını görəndə qürur hissi keçirirsə, təxminən hər on nəfərdən biri (10.7%) qələbə, 14.8% isə sevinc hissi yaşayır.

**Diaqram 1.**

**Azərbaycan bayrağını görəndə hansı hisslər keçirirsiniz?**




Bayrağımızla qürur duyan respondentlər bütün sosial-demoqrafik göstəricilər üzrə üstünlük təşkil edir.

"Hal-hazırda sizin üçün Dövlət bayrağı nəyin rəmzidir?" sualı üzrə müxtəlif nəticələr meydana çıxıb. Belə ki, seçmənin böyük əksəriyyəti (86%) üçün Dövlət bayrağı Qarabağda qələbənin, hər üç nəfərdən biri (35.7%) üçün müstəqilliyin, seçmənin digər üçdə biri (31.5%) üçün isə dövlətçiliyin rəmzidir. Cəmi 25.5% bayrağı milli birliyin rəmzi kimi görür.

Sosial-demoqrafik göstəricilər üzrə verilən cavablarda müəyyən fərqlər müşahidə edilib. Belə ki, yaş üzrə baxdıqda, milli birlik variantı əsasən 18-25 və 46-55 yaş qruplarında seçilib. Dövlət bayrağını Qarabağda qələbənin rəmzi kimi görənlərin faiz göstəriciləri bütün yaş qrupları üzrə oxşardır. Gender cəhətdən isə ciddi fərq müşahidə olunmur. Belə ki, həm kişi, həm qadın respondentlərin böyük əksəriyyəti Dövlət bayrağını Qarabağda qələbənin rəmzi kimi görür. Gender fərqi başqa bir bənd üzrə müşahidə edilib. Belə ki, qadınların 25%-i, kişilərin 38%-i Dövlət bayrağını dövlətçiliyin rəmzi kimi qəbul edir.

**Diaqram 2.**

**Hal-hazırda sizin üçün Dövlət bayrağı nəyin rəmzidir?**




***Qeyd:*** *"Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir".*

Tam orta təhsil və ali təhsillilər arasında bütün cavab bəndləri üzrə diqqət çəkən fərqlər müşahidə edilib. Məsələn, ali təhsillilərin müvafiq olaraq 32% və 46.6%-i Dövlət bayrağını milli birliyin və dövlətçiliyin rəmzi kimi qəbul edir.

Dövlət bayrağını Qarabağda qələbənin simvolu kimi görənlər tam orta təhsillilər arasında ali təhsillilərə nisbətdə təxminən 2 dəfə çoxdur.

Bayrağın işğaldan azad olunan torpaqlarda dalğalandığını görmək (90.1%) və Ali Baş Komandanın qələbə xəbərlərini verməsi fonunda görmək (90%) respondentlərin mütləq əksəriyyətinin Dövlət bayrağıyla qürur duymağının əsas səbəbidir. Seçmənin yarısı (56.3%) isə bayrağımız başqa ölkələrin bayraqları ilə yanaşı dalğalananda qürur hissi duyur. Hər üç nəfərdən biri (35.7%) isə bayrağımızı beynəlxalq idman yarışlarında və şəhərin/rayonun müxtəlif yerlərində görəndə (32.3%) qürur hissi keçirir.

**Diaqram 3.**

**Hansı hallarda Dövlət bayrağımızla daha çox qürur duyursunuz?**




***Qeyd:*** *"Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir".*

Seçmənin mütləq əksəriyyəti (98.2%) müstəqil Azərbaycan Respublikasının mövcud Dövlət bayrağının quruluşu ilə tam razıdır və bu forma onları tam qane edir.

**Diaqram 4.**

**Azərbaycan Respublikasının Dövlət bayrağının hazırkı formasına münasibətiniz necədir?**




## II. Dövlət bayrağı haqqında məlumatlılıq

Bəs vətəndaşlar Dövlət bayrağının rənglərinin ardıcıllığı və Dövlət bayraq günü barədə nə dərəcədə məlumatlıdır? Maraqlıdır ki, 79.2% respondent Dövlət bayrağının rənglərini ardıcıllıqla sadalaya bilib. Respondentlərin yaşı artdıqca bayrağın rəngini düzgün sadalayanların göstəricisi azalır. Belə ki, yaşlılarla müqayisədə Dövlət bayrağının rəngini düzgün ardıcıllıqla bilənlər gənclər arasında üstünlük təşkil edir.

55.2% respondent bayraq gününün qeyd edildiyi tarixi düzgün bilir. 44.8% respondent isə Dövlət Bayraq Gününün 9 noyabr tarixində keçirildiyini bilmir. Sosial-demoqrafik göstəricilər üzrə fərqlər müşahidə edilib. Ali təhsillilərin 75%-i, peşə-ixtisas təhsilli respondentlərin isə 53.4%-i bayraq gününün qeyd edildiyi tarixi düzgün bilir. Ümumi orta təhsillilərin isə yalnız 32.3%-i bu sualı düzgün cavablandırıb. Bu dəyişənlər arasında əlaqə statistik əhəmiyyətə malikdir ($X^2(4)$, 28,051, $p<0.01$). Fərdi əmək fəaliyyəti ilə məşğul olanlar və təqaüdçülərin müvafiq olaraq 67% və 66%-i, işsizlərin isə tam yarısı bayraq gününün qeyd edildiyi tarixi səhv bilib. Bu dəyişənlər arasında əlaqə statistik əhəmiyyətə malikdir ($X^2(7)$, 50,132, $p<0.01$). Yaş amilinə gəlincə isə yaş artdıqca bayraq gününün qeyd edildiyi tarixi düzgün bilənlərin sayı azalır (($X^2(5)$, 15,071, $p<0.05$).

**Diaqram 5.**

**Dövlət bayrağı haqqında məlumatlılıq**




Seçmənin mütləq əksəriyyəti (97.7%) belə qənaətdədir ki, vətəndaşlarımız Dövlət bayrağımıza hörmətlə yanaşır.

**Diaqram 6.**




Dövlət bayrağının məişət əşyaları və geyimlərin üzərində əks olunmasına münasibət birmənalı deyil. Belə ki, seçmənin üçdə ikisi (66.6%) buna müxtəlif dərəcələrdə yaxşı baxdığı halda (38.5% "çox yaxşı", 28.1% "əsasən yaxşı"), hər beş respondentdən birinin (20.1%) Dövlət bayrağının məişət əşyaları və geyimlərin üzərində əks olunmasına münasibəti çox pisdir.

Lakin Dövlət bayrağının müxtəlif binaların üzərində əks olunmasına ictimai münasibət əhəmiyyətli dərəcədə daha yaxşıdır (97.9%). Başqa sözlə, demək olar ki heç kəs buna pis münasibət göstərmir.

**Diaqram 7.**




## III. Qarabağ müharibəsinin əhalinin bayrağa dair münasibətinə təsiri

Respondentlərin böyük əksəriyyəti (77.6%) hesab edir ki, II Qarabağ müharibəsi nəticəsində vətəndaşlar Dövlət bayrağını qələbənin rəmzi kimi qəbul etməyə başladılar.

**Diaqram 8.**




II Qarabağ müharibəsi başlayandan sonrakı dövrdə yaşayış məntəqələrində, mənzillərdə və avtomobillərdə bayrağımızın asılması halları geniş yayılıb. Sorğu müəyyən etdi ki, respondentlərin yarısından çoxu (53.1%) II Qarabağ müharibəsi başlayandan sonra bayraq alıb. Hər üç nəfərdən biri isə (35.2%) daha əvvəldən bayraq sahibi olduğundan, onu almağa ehtiyac duymayıb. Müəyyən qədər narahatedici məqam bundan ibarətdir ki, təxminən 6.8% respondent onun qiymətinin baha olması, yaxud satışda tapa bilməməsi ucbatından bayraq ala bilməyib. Bu da diqqət çəkir ki, 5% respondent Dövlət bayrağına ehtiyac duymayıb.

**Diaqram 9.**




Bayrağın alınması ilə bağlı digər sual isə müəyyən etdi ki, seçmənin nəzərə çarpacaq hissəsi (41.9%) II Qarabağ müharibəsi baş-

layandan bəri bayraqların qiymətinin dəyişdiyini hiss edib. Sosial şəbəkələr və bəzi mətbu orqanlarda dərc edilən xəbərlər göstərir ki, bir sıra yerlərdə bayrağın qiymətində artım olub. Mövcud nəticə bu müşahidəni müəyyən qədər təsdiq edir. Belə ki, bayraqların qiymətinin dəyişdiyini müşahidə edən 41.9%-in əsaslı hissəsi (96.3%) artım olduğunu bildirib.

**Diaqram 10.**

**II Qarabağ müharibəsi başlayandan bəri Dövlət bayraqlarının qiymətinin dəyişdiyini hiss etmisinizmi?**




Seçmənin əsaslı hissəsi (95.1%) Türkiyə bayrağına, yarısı isə (47.9%) Pakistan bayrağına simpatiya duyur. Bu nəticənin reallıqda əyani sübutunu birbaşa müşahidə ilə təsdiq edə bilərik.

**Diaqram 11.**

**Azərbaycanın Dövlət bayrağından başqa daha hansı dövlətlərin bayrağına simpatiya duyursunuz?**




***Qeyd:*** *“Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir”.*

Vətəndaşlarımızın Azərbaycan Respublikasının Dövlət bayrağına münasibəti yüksək səviyyədədir. Respondentlər birmənalı şəkildə hazırkı Dövlət bayrağımızın quruluşunu qəbul edir və belə qalmasını istəyir. Bununla yanaşı vətəndaşlarda Dövlət bayrağının rənglərinin ardıcıllığı və Dövlət Bayraq Günü haqqında məlumatlılıq elə də yüksək səviyyədə deyil. Bu isə əhalinin daha çox maarifləndirilməsinin zəruri olduğunu göstərir.

II Qarabağ müharibəsi ölkə əhalisinin Dövlət bayrağına olan münasibətinin müsbətə doğru dəyişməsinə daha da təsir etdi. İşğaldan azad olunan torpaqlarımıza sancılan bayraqlar əhalinin Dövlət bayrağımızla daha çox qürur duymasına, Dövlət bayrağını qələbənin rəmzi kimi qəbul etməsinə səbəb oldu.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az